https://doi.org/10.59849/2410-5600.2026.1.124
UOT: 82-3512.162

**Nuranə Salmanova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: salmanovan13@gmail.com*

# AZƏRBAYCANIN İLK XALQ RƏSSAMI ƏZİM ƏZİMZADƏNİN HƏYAT VƏ YARADICILIĞI

**Xülasə**

Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış Əzim Əzimzadə ölkənin ilk Xalq rəssamı, satirik qrafika və karikatura janrının banisi kimi tanınır. O, 1880-ci ildə Abşeronun Novxanı kəndində anadan olmuşdur. Əzimzadə yaradıcılığı boyu cəmiyyətin sosial problemlərini, savadsızlıq və ədalətsizlik kimi mənfi halları satirik prizmadan təqdim edərək, xalqın maariflənməsinə və ictimai düşüncənin formalaşmasına əhəmiyyətli töhfələr vermişdir. Onun sənət fəaliyyəti əsasən məşhur "Molla Nəsrəddin" jurnalı ilə bağlı olmuş, 1906–1931-ci illərdə jurnalın karikatura bölməsində çalışmış, 1922-ci ildən isə baş rəssam vəzifəsini icra etmişdir. Rəssamın əsərlərində milli mentalitet, sosial tənqid, modern düşüncə və maarifçilik ideyaları ustalıqla birləşmişdir.

Əzimzadənin zəngin yaradıcılıq irsi, şəxsi məktubları, sənədləri və fotoşəkilləri 1951-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fonduna təhvil verilmişdir. Bu arxiv materialları tədqiqatçılar üçün həm rəssamın yaradıcılığını, həm də XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi mühitin və mədəni proseslərin öyrənilməsi baxımından dəyərli mənbə rolunu oynayır. Əzim Əzimzadənin sənət mirası bu gün də Azərbaycan təsviri sənətində satira və qrafika ənənələrinin inkişafında ilham mənbəyi olaraq qalmaqdadır.

***Açar sözlər:*** *Əzim Əzimzadə, Azərbaycan təsviri sənəti, satirik qrafika, karikatura, "Molla Nəsrəddin" jurnalı, maarifçilik, mədəni irs*

**Giriş**

*XX əsr Azərbaycan mədəniyyətində silinməz iz qoymuş, Azərbaycanın ilk xalq rəssamı, satirik qrafika və karikatura janrının banisi Əzim Əzimzadə (1880-1943) öz əvəzolunmaz rəsmləri ilə xalqın cəhalət və mövhumatdan oyanmasında böyük xidmətlər göstərmişdir. Rəssamın rəsm əsərləri Azərbaycanda və Rusiyada rəsm kolleksiyalarını bəzəmişdir.*

Əzim Əzimzadə 1880-ci ildə Abşeronun Novxanı kəndində sadə azərbaycanlı ailəsində dünyaya göz açmışdır. Rəssam ilk təhsilini öz zəmanəsinin uşaqları kimi molla məktəbində almış, orada ərəb və fars dillərində oxuyub yazmağı öyrənmişdir. Onun boya ilə ilk tanışlığı bir gün yoldaşlarından birinin özü ilə mollaxanaya bir qutu akvarel (sulu boya) gətirib göstərməsi ilə başlayır. Həyatında ilk dəfə boya görən Ə.Əzimzadə qutudakı rənglərlə o qədər yaxından maraqlanır ki, rəsmə olan sevgisi də məhz elə o vaxtlardan yaranır.

Əzim Əzimzadə mollaxanada 3 il təhsil aldıqdan sonra ailəsinin etirazlarına baxmayaraq, rus-tatar məktəbinə daxil olmuşdur. O burada dünyəvi elmləri öyrənməklə yanaşı, rəsm dərslərinə də xüsusi maraq göstərmiş və qısa müddət ərzində sərbəst rəsm çəkməyi öyrənmişdir. Rəsm çəkmək Əzimin ən sevimli məşğuliyyəti idi. O, müşahidə etdiyi adamların, gördüyü əşyaların, hətta görmədiyi adamları və əşyaları xəyalında canlandırır, onların rəsmlərini sevə-sevə çəkirdi. Bununla yanaşı Əzim müəllimlərinin tapşırığı ilə məktəb üçün ədəbi əsərlərə illüstrasiyalar və portretlər hazırlayırdı.

Ə.Əzimzadə 1899-cu ildə rus-tatar məktəbini bitirdikdən sonra təhsilini rəssamlıq məktəbində davam etdirmək arzusunda idi. Lakin buna maddi imkan olmadığından təhsilini davam etdirə bilmir. O ailəsinə yardım etmək məqsədilə dəyirman kontorunda kuryer işinə düzəlir. Kuryer işlədiyi vaxtlarda tez-tez dəyirman sahibinin evinə getməli olurdu. Sahibkarın özünəməxsus gözəl inşa edilmiş malikanəsi var idi. Malikanənin hər mənzilinin divarları maraqlı rəsm əsərləri ilə bəzədilmişdi. Əzim bu rəsm əsərlərinə baxmaqdan gözlərini çəkə bilmirdi. Əzimin heyrətlə baxdığı bu rəsmlər sahibkar Ağabala Quliyevin sifarişi üzrə Rusiyadan dəvət olunmuş rəssam Maslov tərəfindən çəkilmişdi. Rəssam Maslov Əzimin rəsmlərlə maraqlandığını görüb zaman-zaman ona diqqət ayıraraq boya və fırça ilə işləməyin qaydalarını öyrətməyə başlayır. Qısa müddət ərzində onların arasında dostluq münasibəti yaranır və rəssam Maslov Əzimə artıq çəkinmədən rəssamlığın görünməyən sirlərini ötürür.

Malikanənin bəzək işləri başa çatdıqdan sonra Ağabala Quliyev Maslova başqa bir sifariş verir. O, Parisdə Ümumdünya sənaye sərgisində öz dəyirmanının tarixini nümayiş etdirmək istəyirdi. Rəssam sərgi üçün dəyirmanın tarixini təsvir edəcək üç şəkil çəkməli idi. Sahibkar birinci şəkildə nənəsinin əl dəyirmanını, ikinci şəkildə atasının köhnə dəyirmanını, üçüncü şəkildə isə öz tikdirdiyi böyük dəyirmanın təsvirini sərgidə nümayiş etdirmək istəyirdi. Hər üç şəkildə dəyirman sahiblərinin portreti çəkilməli idi. İş təcili, vaxt isə qısa olduğu üçün Maslovun köməkçiyə ehtiyacı var idi. O, gənc dostu Əzimi tanıdıqdan sonra artıq özlüyündə qərara gəlmişdi ki, ona Əzimdən yaxşı köməkçi tapılmayacaq. Çox keçmədən Maslov sahibkardan xahiş edir ki, Əzimi ona köməkçi versin. Sahibkar Maslovun təklifini qəbul edir. Beləliklə, rəssam balaca Əzimlə durmadan çalışır və onların dostluğu daha da möhkəmlənir. Ağabala Quliyevin sifarişi üzrə dəyirmanın tarixinə həsr olunmuş rəsmlər qısa müddət ərzində hazır olur və Parisə göndərilərək Ümumdünya sərgisində nümayiş etdirilir.

İnqilabdan əvvəl müxtəlif adda jurnallar çap olunurdu. Ə.Əzimzadə bütün çap olunmuş jurnalların məzmunu ilə yaxından tanış olurdu. Həmin jurnallardakı rəsmləri Oskar Şmerlinq və İosif Rotter adlı əcnəbi rəssamlar çəkirdi. Zamanla Ə.Əzimzadənin rəsmləri də bu jurnallara yol açır və beləliklə o, yaradıcılığının ilk pillələrini qalxmağabaşlayır. XIX əsrin əvvəllərindəki mürəkkəb bir zamanda çap olunan jurnallar içərisində "Molla Nəsrəddin" jurnalı təsir gücünə görə üstün yer tuturdu. Məhs bu səbəbdən Molla Nəsrəddin"də yaradıcılıq fəaliyyətinə başlamaq rəssamın ən böyük istəyi olmuşdur. Gənc rəssam jurnalın ilk oxucularından olmuşdur. Rəssamın "İrşadın müştərisi" adlı ilk rəsmi "Molla Nəsrəddin" jurnalında 1906-cı ildə işıq üzü görmüşdür. 1922-ci ildə jurnal fəaliyyətini bərpa edən zaman Ə.Əzimzadə onun baş rəssamı olmuşdur. 1931-ci ildə C.Məmmədquluzadənin ölümündən sonra jurnalın bağlanmasına qədər bu vəzifədə çalışmışdır.

Əzim Əzimzadə karikaturaçı rəssam idi. Onun ilk karikaturaları "Molla Nəsrəddin" (1906-1931), "Zənbur" (1909-1910), "Kəlniyyət" (1912-1913), "Baraban" (1912-1913), "Biç" (1909-1916), "Məzəli" (1914-1915), "Babayi-Əmir" (1915-1916), "Tuti" (1914-1916) kimi satirik jurnallarda dərc olunurdu. Rəssamın bu jurnallarla əməkdaşlığı onun yaradıcılıq fəaliyyətini daha da möhkəmləndirmişdi.

Beləliklə, rəssam satirik şeirlərə rəsmlər çəkir, dövrünün çətinliklərini, mənfiliklərini, ziyalıların azlığını, cəmiyyətdə mövhumat və cəhalətin hökm sürdüyünü öz fırçası ilə aydın şəkildə təsvir etmişdir. Onun "Qəflət yuxu", "Amandı Xandostu qoyma gəldi", "Oxutmuram, əl çəkin" və sairə rəsmləri sanki dil açıb danışır.

Hər tərəfdə haqsızlıq, ədalətsizlik baş alıb gedən zaman ziyalılarımızın öz adları ilə qəzet və jurnallarda çıxış etmələri onlar üçün təhlükəli idi. Onlar hər addımda təzyiqə məruz qalıb daş-qalaq edilirdilər. M.F.Axundov, M.Ə.Sabir, H.Zərdabi və başqaları belə təzyiqlərə məruz qalan yazarlarımızdan olmuşdurlar. Bu səbəbdən onlar qəzet və jurnallarda təxəllüslə və ya imzasız çıxış edirdilər. Ola bilsin ki, Ə.Əzimzadə də bu səbəbdən rəsmlərinə öz imzasını atmırdı. Bunun haqqında A.Qazıyev Ə.Əzimzadə irsini araşdırarkən rəssamın 1922-ci ilə kimi çəkdiyi rəsmlərində öz imzasını qoymadığını qeyd edirdi. Müəllif "Xalq rəssamı Əzim Əzimzadə" adlı kitabında yazır: "Ə.Əzimzadə bu dövrdə çəkdiyi şəkillərin altında senzuradan gizlənmək məqsədilə "Əzimov", "Əzim", "Ə-v" imzası və ya "Çujoy", "Ne-on", "Aslan", "Aslanov" və s. təxəllüsü yazırdı[2, s.13].

Qulam Məmmədli və Afaq Əliyevanın müəllifi olduqları "İmzalar" kitabında Əzim Əzimzadəyə 30-a yaxın gizli imza aid edilir. Məsələn, yuxarıda adları çəkilənlərdən başqa "Avara rəssam", "Firovini-xırda", "Svoy", "Ris.Azima", "Vaxtınvar"[3, s.198]və s.

Rəssamın öz imzasını təsdiqləyən başqa bir maraqlı dəlil isə "1940-cı ildə Azərbaycan Dövlət incəsənət muzeyi, Ə.Əzimzadənin əsərlərindən ibarət sərgi təşkil edilməsi ilə əlaqədar olaraq, rəssamın özünə müraciət edib, inqilabdan əvvəl "Molla Nəsrəddin" jurnalı üçün çəkdiyi şəkillər haqqında məlumat verməsini xahiş etmişdi. O zaman Əzimzadə "Molla Nəsrəddin" komplektini vərəqləyib, bir neçə imzasız karikaturanın kənarında karandaşla: "mənimdir" sözünü yazmış və imzalamışdı[4, s.22].

Ə.Əzimzadənin rəsmlərində təsiredici qüvvə yüksək olduğundan savadsız kütlə tərəfindən asanlıqla anlaşılırdı. H.Zərdabinin, M.Ə.Sabirin C.Məmmədquluzadənin sözlə çatdırmaq istədikləri mətləbləri gənc rəssam öz rəsmləri ilə rahat şəkildə xalqa çatdırırdı. Yazıb-oxumaq bilməyən əhali onun rəsmlərindən hər incə mətləbi rahatlıqla duyurdu.

Jurnalın fəaliyyəti Əzim Əzimzadənin gələcəyinə işıqlı yol açmış, bir sözlə, "Molla Nəsrəddin" jurnalı Əzim Əzimzadənin rəssamlıq peşəsində ona istiqamət verən və onu daim inkişaf etdirən mükəmməl məktəb olmuşdur. O, bu dövrdə bərkdən-boşdan çıxıb bərkiməyə, püxtələşməyə başlamışdır.

Həmin dövrdə Bakıda çap olunan "Şəlalə", "Bakinskoye qore", "Kəlniyyət" və s. jurnallar gənc rəssamın yaradıcılığına təsir göstərmişdir. Ömrünün 40 ilini satira sahəsinə həsr etmiş Əzim Əzimzadə həyatının sonuna kimi bu sevdiyi sənətə sadiq qalmışdır.

Bakıda çap olunan "Zənbur" jurnalının 1-ci nömrəsi 1909-cu ildə işıq üzü görmüşdür. Ə.Əzimzadə bir müddət "Zənbur" jurnalında çalışmışdır. Jurnalın 22-ci nömrəsindən etibarən rəssam jurnala redaktor təyin edilmişdir. Rəssamın redaktor təyinatından sonra jurnalın bədii-ədəbi gücü artmış və rəsmlərin çəkilişinə diqqətlə yanaşılması jurnalı daha da zənginləşdirmişdir. Gənc rəssam "Zənbur"da bir müddət çalışdıqdan sonra məlum olmayan səbəblərdən jurnaldan ayrılmışdır.

1910-cu ildə o, bibisi ilə Kərbəla ziyarətinə yola düşmüşdür. Əzim bibisini müşahidə etməklə Ərəbistanı, İraqı, İranı görmüş, bu səfər onun həm həyat təcrübəsində, həm də yaradıcılıq təcrübəsində mühüm rol oynamışdır. Səfərdən qayıtdıqdan sonra gənc rəssam yeni karikaturaları ilə mollaları, rüşvətxorları, insanları aldadanları kəskin tənqid etmiş, onların eyiblərini göstərmişdir.

Rəssam ziyarətdən gəldikdən sonra müəllimlik fəaliyyəti ilə yanaşı "Molla Nəsrəddin" jurnalı ilə də yenidən əməkdaşlıq etmişdir.

Ə.Əzimzadə Azərbaycan dilində çap olunan "Kəlniyyət" və rus dilində çap olunan "Baraban", "Biç" jurnallarında da çalışmış, lakin jurnalların bağlanması onu həvəsdən salmamışdır.

1912-ci ildən Ə.Əzimzadənin yaradıcılığının məhsuldar dövrü başlamışdır. Həyatda haqsızlıqlarla, əngəllərlə daha çox rastlaşan rəssam fırçası ilə sadə xalq kütləsinin başa düşə biləcəyi bir dildə öz mətləbini anlada bilmişdir.

1913-1914-cü illərdə "Tuti", "Məzəli", "Babayi-Əmir" kimi həftəlik ədəbi və ictimai-siyasi jurnalda onun rəsmləri çap olunurdu.

Birinci Dünya müharibəsi ərəfəsində nəşr olunan "Məzəli" jurnalında çalışaraq köhnə adətləri tənqid edən, dindar müsəlmanların iç üzünü açıb göstərən rəsmləri ilə xalqımıza xidmət etmişdir. Bu jurnal əxlaqı davranışlara toxunan rəsmlərə çox yer verirdi. Dünyagörüşünün genişlənməsində xüsusi rol oynayan jurnallar Əzim Əzimzadənin yaradıcılığına müsbət təsir göstərirdi.

Ə.Əzimzadənin yaradıcılığını iki mərhələyə bölmək olar. Birinci mərhələ inqilabdan əvvəl, ikinci mərhələ isə inqilabdan sonrakı dövrü əhatə edir. Onun inqilabdan əvvəlki rəssamlıq fəaliyyəti məhdud idi. Cahil və nadanlar tərəfindən sıxışdırılır, əngəllərlə qarşı-qarşıya dayanmalı olurdu. Sonrakı dövr isə onun rəssamlıq sənətinə imkan açmış və rəsmlərinin çap olunmasına şərait yaratmışdır. Əzimin ən böyük amalı mənsub olduğu xalqın gözünü açıb ona dünyanı göstərmək, həyatını rahatlaşdırmaq idi. O dövrdə təbliğat plakatlarının yazılması və inqilabi bayramlarda şəhərin bəzədilməsi Əzimə həvalə edilmişdir. O, həmçinin xalqın mədəni və elmi cəhətdən maariflənməsinə təşəbbüs göstərmiş, rəssamlıq dərnəklərinin yaranmasını təşkil etmişdir.

1922-ci ildə "Molla Nəsrəddin"inin yenidən nəşr olunması və M.Ə.Sabirin "Hophopnamə"sinin çap olunması onun yaradıcılığına yeni imkanlar açmışdır. 1922-1931-ci illəri əhatə edən 9 illik yaradıcılıq fəaliyyətində o, "Molla Nəsrəddin" jurnalına 1500-ə yaxın karikatura çəkmişdir.

Mirzə Ələkbər Sabir satiralarının Əzim Əzimzadə rəsmlərində əks etdirilməsi Azərbaycan mədəniyyət tarixində böyük əhəmiyyət kəsb edir. Ə.Əzimzadə karikaturaları Mirzə Ələkbər Sabir poeziyasının məzmununa və üslubuna çox yaxın olduğundan Sabirin sözlə dediyini Ə.Əzimzadə rəsmlərilə açıb göstərmişdir. Oxucular Sabirin satiralarını şəkilsiz təsəvvür edə bilmirdilər.

Ə.Əzimzadə konkret şəraitdə real hadisələri olduğu kimi təsvir edirdi. Onun kəskin satira gücü, sadə təsvir etmək məharəti ondakı rəssamlıq qabiliyyətini açıq-aydın göstərirdi.

C.Məmmədquluzadə Ə.Əzimzadə "Molla Nəsrəddin"dəki fəaliyyətini və rəssamlıq istedadını nəzərə alaraq onu jurnalın baş rəssamı təyin etmişdir. 10 il ərzində yüzlərlə karikatura çəkmiş rəssam ölkənin daxili və xarici düşmənlərini ifşa etmiş, qolçomaqların, mollaların, bürokrotların iç üzünü açıb göstərmiş, daim xalqın gözünü açmağa çalışmışdır.

Azərbaycanın görkəmli şəxsiyyətləri Əzim Əzimzadə yaradıcılığını hər zaman yüksək qiymətləndirmişlər. Mürsəl Nəcəfov "Xalq rəssamı Əzim Əzimzadə" adlı kitabında bu haqda geniş şəkildə yazmışdır: "Azərbaycan ziyalıları – yazıçılar, bəstəkarlar, artistlər Əzimzadəyə çox böyük hörmət bəsləyirdilər. Gənc rəssamlar, yeni yazan şair və ədiblər, mətbuat işçiləri tez-tez rəssamın evinə gələr, onunla görüşər, ondan məsləhət alardılar. Rəssamın dostları arasında xalq yaradıcılığının müxtəlif sahələrində fəaliyyət göstərən sənətkarlar da az deyildi.

Görkəmli yazıçılardan Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Seyid Hüseyn, Tağı Şahbazi (Simurğ), görkəmli artistlərdən və bəstəkarlardan Hüseynqulu Sarabski, Mirzəğa Əliyev, Hacıağa Abbasov, Abbas Mirzə Şərifzadə, Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov, Müslüm Maqomayev və başqa mədəniyyət xadimlərimiz öz yaxın dostları olan Əzimzadənin yaradıcılıq qabiliyyətinə yüksək qiymət verirdilər. Onlar Əzimzadənin xidmətlərindən danışmaqdan yorulmurdular.

Şair Süleyman Rüstəm 1942-ci ildə Əzim Əzimzadənin yaradıcılığına həsr olunmuş bir yığıncaqda ona ithaf etdiyi şeirini oxumuşdu; həmin şeirdə deyilir:

*...Böyük ustadısan yeni həyatın,*
*Sənət göylərində sınmaz qanadın,*
*İnan yaşayacaq sənin də adın,*
*Çəmən yaşadıqca, gül yaşadıqca!*
*Vətən yaşadıqca, el yaşadıqca!*

*Kim ki, öz qəlbini verir Vətənə,*
*Əsrlər keçsə də, ömr edər yenə.*
*Xalqımın adından izn ver mənə,*
*Bu Vətən hərbində bu gün, bu yerdə*
*Sıxım o sənətkar əlini bir də"*[5]

1943-cü ilin əvvəllərində Ə.Əzimzadə xəstələnir. "*Respublika İncəsənət muzeyində saxlanan "Berlin muzeyi" karikaturası rəssamın sonuncu əsəridir. Akvarel texnikasında işlənmiş bu karikaturada vəhşi heyvanların şəkilləri, müqəvvaların arasında Hitlerin, Keytelin, Gebbelsin müqəvvaları diqqəti cəlb edir. Son dərəcə güclü mübaliğə tərzində çəkilmiş karikatura öldürücü tənqid qüvvəsinə malikdir*" [5, s.17].

**Əlyazma İnstitutunun saxlanılan Ə.Əzimzadənin şəxsi fondu haqqında**

Ə.Əzimzadənin 22 saylı şəxsi fondu AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun xəzinəsində qorunub saxlanılır. 42 saxlama vahidi altında cəmlənmiş sənədlərin sayı 81-ə qədərdir. Arxivdə Ə.Əzimzadənin tərcümeyi-halı, çap kitabı, Əzimzadəyə ünvanlanmış məktublar və onun

yazdığı məktublar, fotoşəkillər, təbriklər, vəsiqə, mandat, kurort kitabçası, qeydlər və s. sənədlər saxlanılır.

Sənədlərin içərisində Əzim Əzimzadənin özü tərəfindən qələmə aldığı tərcümeyi-halı mühafizə olunur [6, f.22, s.v.20]. Tərcümeyi-halda rəssamın həyatı, yaradıcılığı, "Molla Nəsrəddin" jurnalında, "Kommunist" qəzetində işləməsi və rus-tatar məktəbindəki pedaqoji fəaliyyəti haqqında qısa məlumat verilmişdir.

Şəxsi arxivdə Əzim Əzimzadənin yazdığı "Mənim əsərim" adlı əsəri qorunub saxlanılır [6, f. 22, s.v.3]. Əsər Əzim Əzimzadənin həyatı ilə bağlı xatirələrindən bəhs edir.

Mürsəl Nəcəfovun Ə.Əzimzadəyə həsr etdiyi "Əzim Əzimzadə" adlı kitabı şəxsi arxivdə mühafizə olunur [6,f.22, s.v.33].Kitab 1959-cu ildə Bakıda Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatında çap olunmuşdur. Müəllif kitabda yazır: "Əzim Əzimzadənin sənətkarlığının başlıca cəhəti cahilliyi, nadanlığı açıb göstərmək idi. Azərbaycan xalqının maariflənməsinə böyük ümid edən Ə.Əzimzadə real həyatdakı xalqın taleyini, qadınların hüquqlarının pozulmasını, cahil insanları öz rəsmlərində canlandırırdı". Mürsəl Nəcəfov bu kitabın ərsəyə gəlməsində AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılan qiymətli materialların, xüsusilə, rəssamın şəkilləri ilə bəzənmiş jurnalların ("Kəlniyyət", "Baraban", "Məzəli" və s.) çox köməyi olduğunu kitabın ilk səhifəsində öz xətti ilə yazmış və kitabı fonda hədiyyə etmişdir.

Hələ sağlığında rəssamın yaradıcılığı yüksək qiymətləndirilmiş və Azərbaycan incəsənətindəki əvəzolunmaz xidmətlərinə görə ona 1931-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 16 iyun 1927-ci il tarixli qərarı ilə "Xalq artisti" adı verilmişdir. Həmin qərarı təsdiqləyən sənəd şəxsi arxivdə saxlanılır [6, f. 22, s.v.26].

Azərbaycan Sovet Sosialist Respublikasının XX illiyi münasibətilə Azərbaycan Sovet Sosialist Respublikası Baş Sovetinin Prezidiumu 1940-cı il 27 aprel tarixli fərmanı ilə Azərbaycanın xalq rəssamı Əzim Əzimzadəni Fəxri Fərmanla təltif etmişdir. Həmin sənəd arxivdə qorunub saxlanılır [6, f.22, s.v.26].

Arxiv sənədləri içərisində 1927-ci ildə Hacı Kərim Sanılının Əzim Əzimzadənin yaradıcılığının 20 illiyinə həsr etdiyi "Rəssam Əzim Əzimzadə" adlı şeiri də mühafizə olunur:

*Azəri mülkündə qoca təbiət,*
*Bəsləmiş qoynunda bir rəssam səni.*
*Etmisən əllərə sən xeyli xidmət,*
*Çoxdandır tanıyır xalq tamam səni*....[6, f.22, s.v.31].

Azərbaycan xalqının maariflənməsində böyük xidmətləri olmuş Əzim Əzimzadənin fırçası vacib mətləbləri öz satirik rəsmləri ilə xalqına pisi-pis, əyrini-əyri, düzü-düz göstərməyə nail olmuşdur.

1931-ci ildə Ə.Əzimzadə Azərbaycan Rəssamlar İttifaqının üzvü olduğu üçün ona İttifaqın vəsiqəsi təqdim edilmişdir [ 6, f.22, s.v.13].

2006-ci ildə Əzim Əzimzadənin şəxsi arxivi Mehri Məmmədova tərəfindən çap olunmuşdur.

Azərbaycan mədəniyyətində rəssamlıq sənəti Əzim Əzimzadənin adı ilə bağlıdır. Xalq rəssamı öz yaradıcılığı ilə xalqının qəflətdən oyanmasına və maariflənməsinə nail olmuş sənətkarlardandır. O, rəssamlıq sənətində ilk cığır açan sənətkar olmuşdur. Açdığı bu cığırı çəkdiyi rəsm əsərləri ilə ömrünün bütün illərində öz iradəsi, öz əzmilə genişləndirərək xalqımıza fayda verən işıqlı bir yol salmışdır. Bu yol rəssamlıq sənəti, rəssamlıq məktəbidir.

Sənətinin istedad sahibi olan Əzim Əzimzadə özündən sonra Azərbaycan xalqına əbədi bir irs qoymuşdur. Məhz onun təşəbbüsü ilə 1920-ci ildə Azərbaycanın ilk rəssamlıq məktəbi yaradılmışdır. Məktəb yaradılan gündən ömrünün sonuna kimi orada dərs demişdir. Təhsil müəssisəsi 1920-1921-ci illərdə Azərbaycan Dövlət Bədii Studiyası, 1921-1922-ci illərdə Ali Rəssamlıq Emalatxanaları, 1922-1927-ci illərdə Ali Rəssamlıq Məktəbi, 1927-1940-cı illərdə Azərbaycan Dövlət Rəssamlıq Texnikumu, 1940-cı ildən isə Azərbaycan Dövlət Rəssamlıq Məktəbi adlandırılmışdır. 1943-cü ildə isə məktəbə Əzim Əzimzadənin adı verilmişdir.

13 iyun 2000-ci ildə Azərbaycan Rəssamlıq Akademiyası yaradılan zaman məktəb İncəsənət Kolleci adı ilə həmin Akademiyanın tabeliyinə verilmişdir.

Özünəməxsus yaradıcılıq üslubu ilə mədəniyyət tariximizdə daim yaşayan xalq rəssamı Əzim Əzimzadənin əvəzolunmaz sənətini Azərbaycan dövləti layiqincə qiymətləndirmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli qərarı ilə rəssamın adı əsərləri dövlət varidatı elan edilmiş 35 müəllifin sırasında yer almışdır.

Əzim Əzimzadənin xatirəsini əbədiləşdirmək üçün vaxtilə yaşadığı ev Nazirlər Sovetinin 14 iyun 1965-ci il tarixli qərarı ilə xatirə muzeyinə çevrilmişdir. 1968-ci ildə fəaliyyətə başlayan mədəniyyət ocağı Bakıda rəssamlıq üzrə ilk ev muzeylərindən biridir. Hazırda muzey D.Əliyeva küçəsi 157-də yerləşir. Muzeyin fondunda rəssamın 2117 eksponatı qorunub saxlanılır. Əzim Əzimzadənin ev-muzeyinin ekspozisiyası 6 otaqdan ibarətdir. Muzeydə rəssamın 4 üslubda çəkdiyi əsərlər nümayiş etdirilir: 1. Karikaturalar, 2.Portretlər, 3. Ornamentlər, 4. Mənzərə.

Ə.Əzimzadənin R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət muzeyində 232 əsəri, 3 albomu, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində isə rəssama aid 499 ədəd eksponat saxlanılır.

2019-cu ildə Azərbaycan milli rəngkarlıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Əzim Əzimzadənin Bakı şəhərindəki xatirə muzeyinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən aparılmış təmir işlərindən sonra açılış mərasimi keçirilmiş və muzey qapılarını yenidən sənətsevərlərin üzünə açmışdır. Xatirə muzeyində rəssamın əsərləri, yaşadığı mühiti əks etdirən guşə və fəaliyyətini özündə cəm edən şəxsi fondu qorunub saxlanılır.

Azərbaycanın görkəmli sənətşünasları Əzim Əzimzadə yaradıcılığını elmi əsaslarla araşdıraraq öz dəyərli fikirlərini yazmışlar. Bunlardan biri sənətşünas, professor Nurəddin Həbibovdur. Onun xalq rəssamı Əzim Əzimzadə haqqında fikirlərinə görə, "müasir Azərbaycan qrafikasının təşəkkülü, formalaşması və inkişafı Əzim Əzimzadənin adı ilə ayrılmaz şəkildə bağlıdır. O, XX əsr milli təsviri sənətimizin inkişafında əvəzsiz rol oynamış, qrafikamızı yeni janrlar və obrazlarla zənginləşdirmiş, rəssamlıq kadrlarının yetişdirilməsinə, boya-başa çatdırılmasına güclü təkan vermişdir. Məhz buna görə də Əzim Əzimzadə XX əsr Azərbaycan təsviri sənəti salnaməsində şərəfli yer tutur" [5, s.50-51].

**Nəticə**

*Əvvəldə qeyd etdiyimiz kimi Azərbaycan jurnal və qəzetlərində əcnəbi rəssamlar çalışırdı. Bu missiyanı daha çox Avropadan və Rusiyadan gəlmiş rəssamlar yerinə yetirirdilər. Gənc Əzimin rəssamlıq istedadı və bu sənətə sevgisi öz millətimizdən olan bir sənətkarı yaratdı. Bu yolda böyük çətinliklərlə üz-üzə qalan gənc rəssam heç vaxt yolundan dönmədən, əlindəki fırçaya sadiq qalaraq xalqının mariflənməsində və xalqın ona ehtiyacı olduğunu dərk edərək bu sənətə dərindən yiyələnmişdir. Rəssam qəzet və jurnallar nəşr edilən ədəbi mühitdə hər zaman ziyalılarımız arasında hörmətli, ehtiyac duyulan bir sənətkar olmuşdur.Əzim Əzimzadənin uzun illərdən və çətin keçən yollardan bu günümüzə qədər gəlib çatan qiymətli sənəti, qüdrətli fırçası Azərbaycan xalqının mariflənməsində daim yanan çıraq olmuşdur. Bu sönməz çıraq rəssamlıq mədəniyyətimizi daim işıqlandıracaqdır.*

**Ədəbiyyat siyahısı:**

1. Həbibova,S. Əzim Əzimzadə / -Bakı: Sərvət, - - 2013. s.-50-51.
2. Qazıyev, A.Y. Xalq rəssamı Əzim Əzimzadə / Bakı: -1953. -29s.
3. Məmmədli, Q., Əliyeva, A. İmzalar / - Baklı: Letterpress, - 2015.-217s.
4. Nəcəfov, M. Əzim Əzimzadə / -Bakı: İşıq nəşriyyatı, - 1980.- 66 s.
5. Nəcəfov, M. Əzim Əzimzadə / -Bakı: Azərbaycan uşaq və gənclər ədəbiyyatı, - 1959, -s.22.
6. Əzimzadə Ə. AMEA ƏYİ, f.22, s.v.20.

**Nurana Salmanova**

## THE LIFE AND CREATIVITY OF AZIM AZIMZADE, THE FIRST PEOPLE'S ARTIST OF AZERBAIJAN

*Summary*

Azim Azimzade, who played an important role in the development of fineart in Azerbaijan, is recognized as the country's first national artist, the founder of the genre of satirical graphics and caricature. He was born in 1880 in the village of Novkhani Absheron. Throughouth is career, Azimzade made a significant contribution to theenlightenment of the people and the formation of public thought, presentingthrough a satirical prism the social problems of society, such negative ephenomenaasi lliteracy and injustice. His artistic activity was mainly associated with the famous magazine “ Molla Nasreddin”, in 1906-1931 he worked in the caricature department of the magazine and from 1922 he held the position of chiefsrtist. The artist's works masterfully combine the ideas of national mentality, social criticism, modern thought and enlightenment.

Azimzade's rich creative heritage, his personal letters, documents and photographs were transferred to the Fund of the Muhammad Fuzuli Institute of Manuscripts of the National Academy of Sciences of Azerbaijan in 1951. These archival materials serve as a valuable source for researchers both from the point of view of studying the artist's work, as well as the socio-political environment and cultural processes in Azerbaijan at the beginning of the 20th century. Today, the artistic legacy of Azim Azimzade remains a source of inspiration in the development of the traditions of satire and graphics in the visual arts of Azerbaijan.

***Keywords:*** *Azim Azimzade, fine art of Azerbaijan, satirical graphics, caricature, "Molla Nasreddin" magazine, Enlightenment, cultural heritage*.

*Filologiya üzrə elmlər doktoru, dosent* ***Nailə Səmədova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*